# Dahi Füzuli irsinə növbəti töhfə





**Fevralın 28-də Bakı Muğam Mərkəzində dünyaca məşhur şair Füzuli haqqında və ona həsr edilən ədəbi, bədii və sənət əsərlərinin ilk toplusunun təqdimatı keçirilib. Bütün dövrlərin poeziya dühalarından olan Füzuliyə həsr olunmuş ən əhatəli nəşr şairin 530 illik yubileyinə bp-Azerbaijan şirkətinin dəyərli töhfəsidir.**

Təqdimat mərasimində çıxış edən Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar bildiriblər ki, Füzulinin məhəbbət, mistika, insan ruhu və varlığı mövzularını elm, sənət, məntiq və poetik təxəyyül elementləri ilə təkrarsız birləşdirmək bacarığı misilsiz və ölməz ədəbi irs yaradıb. Bu irs müxtəlif dövrlərdə bir çox şairləri, yazıçıları, musiqiçiləri və rəssamları cəlb edərək onun haqqında ədəbiyyat, musiqi və incəsənətin müxtəlif sahələrində əsərlər yaratmağa ruhlandırır.

Vurğulanıb ki, təqdim olunan kitab Füzuliyə həsr olunan bütün şeirlər, poemalar, romanlar, pyeslər və hekayələrdən, eləcə də onun müxtəlif dövrlərdə fərqli rəssamlar tərəfindən yaradılmış çoxsaylı portretlərindən və əsərlərinə çəkilmiş illüstrasiyalardan ibarət geniş və hərtərəfli materiallar toplusudur.

bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli poeziya nəhəngi Füzuliyə aid əsərlərin hərtərəfli və əhatəli toplusu olan bu nəfis nəşri təqdim etməkdən məmnunluq ifadə edib. Füzulinin poeziyası emosional dərinliyi və ifadə gücü ilə nəsilləri heyran edib və onlara təsir göstərib. Bu gün də onun şeirləri ruhumuza toxunaraq poetik ifadənin misilsiz gücü və qüdrəti, mistik metaforalar və simvollardan istifadə bacarığı ilə bizi heyrətləndirir.

900 səhifəlik bu kitab Füzuli haqqında və ya ona həsr olunmuş 220-dən çox ədəbi əsəri, eləcə də orta əsrlərdən bəri şairin əsərlərinə çəkilmiş miniatür illüstrasiyalar da daxil olmaqla, 100-ə yaxın milli və beynəlxalq rəssam tərəfindən yaradılmış təxminən 230 portret və rəsm əsərini özündə birləşdirir. Layihənin icraçısı Azərbaycan dövlət nəşriyyatı - "Azərnəşr"dir. Kitab Azərbaycanın aparıcı kitabxanalarına, müvafiq akademik və tədqiqat institutlarına, eləcə də universitetlərə hədiyyə olunacaq.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika.- 2025.- 1 mart (№ 46).- S.12.